*(Əvvəli ötən sayımızda)*

Türkiyənin bu prosesdə fəal iştirakını bəyan edən İlham Əliyev, Türkiyənin Azərbaycana hərbi yardım etməsi iddialarına da aydınlıq gətirmişdir: " Bilirsiniz, Türkiyə bizim qardaşımızdır. Bizim qardaşlıq münasibətlərimiz artıq böyük sınaqlardan çıxmışdır. Təbii ki, Türkiyə-Azərbaycan birliyi daha da möhkəm olacaq. Bu həm Türkiyə, həm də Azərbaycan üçün həyati əhəmiyyət, önəm daşıyır. Türkiyə-Azərbaycan birliyi bölgəyə sabitlik, sülh gətirir. Çünki bizim niyyətimiz öz maraqlarımızı təmin etməkdir. Bu gün Türkiyə bölgədə və yeni coğrafiyada çox önəmli sabitləşdirici rol oynayır. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bu toqquşmaların ilk saatlarında verdiyi dəstək sabitliyi qorudu. Baziləri bəlkə bunu anlamırlar. Əgər o sözlər olmasaydı, əgər mənim qardaşım deməsəydi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır, bəlkə də burada vəziyyət qarışardı. Bəlkə də başqa kimsə burada, necə deyərlər, bulanıq suda balıq tutmağa çalışacaqdı. Ona görə bundan sonra bu bölgədə biz yeni bir strateji mənzərə, strateji baxış yaratmalıyıq. Artıq bu barədə düşünməyə başlayırıq, ancaq hadisələri qabaqlamaq istəmirik. Qoy bunu həll edək, bu iş bitsin, ərazi bütövlüyümüz bərpa edilsin, ondan sonra Azərbaycanın yeni dövrü başlanacaq, bölgənin yeni dövrü başlanacaq, güclər nisbəti dəyişəcək və hesab edirəm ki, Türkiyə və Azərbaycanın gücü daha da möhkəm olacaq."[7]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Anadolu Agentliyinə 2021-ci il sentyabrın 28-də verdiyi müsahibədə aşağıdakı məsələlərinə bir daha aydınlıq gətirmişdi. Qarabağ müharibəsinin başlanmasının səbəbləri, ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi, Azərbaycanın Qarabağ bölgəsindəki

Rusiyanın sülh məramlılarına münasibət, Türkiyə-Ermənistan münasibətləri, Altılıq formatında əməkdaşlıq məsələsi, İranın bölgədə davranışları,

Mən söylədim ki, bu, böyük yanlışlıq olar və onlar özləri də peşman olacaqlar. Çünki biz bu təklifi masa üzərində əbədi saxlamalı deyilik. Əgər buna etiraz edirlərsə, açıq söyləsinlər ki, onlar Azərbaycanla sülh müqaviləsi imzalamaq istəmirlər. Belə olan halda biz də öz siyasətimizi buna uyğun şəkildə aparacağıq. Əgər Ermənistan buna hazırdırsa, əgər Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünü tanımağa hazırdırsa, onda əlbəttə ki, bölgəyə uzunmüddətli sülh gələcək. Biz bunu istəyirik və eyni zamanda, buna nail olmaq üçün indi konkret təkliflər də masa üzərindədir. Yolların açılması, Zəngəzur dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, yəni Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi bizim maraqlarımıza cavab verir. Hesab edirəm ki, Ermənistanın da maraqlarına cavab verir. Çünki Zəngəzur dəhlizi onların da maraqlarına xidmət edəcək. Onlar da dəmir yolu ilə həm İranla, həm Rusiya ilə əlaqə yarada bilərlər. Bu günə qədər bu əlaqə yoxdur və onlar üçün də yeni fürsətlər ortaya çıxacaq.[2]

Dövlət başçısı Ermənistanda ifrat millətçilik, türkofobiya, azərbaycanofobiya, islamofobiya adı insanların və hakim dairələrin beyinlərini zəhərlədiyini, cəmiyyətin və hakimiyyətin çətin psixoloji vəziyyətdə olduğunu bir daha xatırladaraq bildirdi ki, "Çünki onların otuz il ərzindəki ideoloji sütunları darmadağın edildi, mifologiya darmadağın edildi. Erməni ordusunun "müzəffər ordu"olmasını biz 44 gün ərzində yerlə bir etdik. Onların ərazi iddiaları məhv edildi."[2]

Ali Baş Komandan İlham Əliyev Azərbaycana Türkiyənin təkcə silahla yox, hərtərəfli dəstək olduğunu, İkinci Qarabağ müharibəsi- Vətən müharibəsi başlayan kimi Rəcəb Tayyib Ərdoğanın qətiyyətli açıqlamalarını, Türkiyənin Azərbaycanın yanında olduğunu və Azərbaycanın haqq işində Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstək verdiyini, bir çoxlarını məsələyə müdaxilə etməkdən çəkindirdiyini xüsusi qeyd edirdi:" Bilmək olmurdu bəzi ölkələr özlərini necə aparacaqlar. Bəzi ölkələrin İkinci Qarabağ savaşı dönəmində sərgilədikləri siyasi mövqe onu göstərir ki, onlar Ermənistan tərəfində idilər. Onlar şər qüvvələrin tərəfində idilər, işğalçının, zalımın, vəhşinin tərəfində idilər. Heç bir izahat, məntiqə əsaslanan hər hansı bir söz onların mövqeyinə təsir etmirdi. Onlar real həqiqəti görmək istəmirdilər və bizi ittiham edirdilər, sanki biz işğalçıyıq. Mən isə deyirdim ki, biz öz torpağımızda savaş aparırıq. BMT Nizamnaməsi bu hüququ bizə verir. Hər bir ölkə özünü müdafiə edə bilər və bu hüquq Birləşmiş Millətlər Təşkilatı tərəfindən verilib. Ancaq buna baxmayaraq, bizə qarşı çox çirkin şərböhtan kampaniyası aparılırdı. Biz bilirik bunun arxasında kimlər dayanır. Ona görə Türkiyənin Cumhurbaşqanının və digər yüksək vəzifəli şəxslərin – müdafiə, xarici işlər nazirlərinin, parlament sədrinin açıqlamaları, əlbəttə, bir çoxlarını çəkindirdi."[2]

Dövlət başçısı Türkiyədən alınmış bayraktarlar da daxil olmaqla müasir silahların Azərbaycan tərəfinin insan itkisinin çox olmamasına səbəb olduğunu tamaşaçıların diqqətinə çatdırdı: "Əgər bu silahlar bizdə olmasaydı, əlbəttə, bizim işimiz daha çətin olardı, daha çox şəhidlər olacaqdı şübhəsiz. Ancaq biz Türkiyədən təkcə silahlı PUA-lar deyil, başqa silahlar da almışdıq - "qasırğa"lar, hərbi maşınlar, "kobra"lar. Yəni, bir çox silahlar var və bu proses davam edir. Maşallah, Türkiyənin müdafiə sənayesi çox sürətlə inkişaf edir və əlbəttə ki, biz də bundan faydalanırıq və faydalanacağıq."[2]

Prezidet İlham Əliyevin xarici informasiya agentliyinə müsahibələri Türkiyə mediası tərəfindən də geniş işıqlandırılırdı. Azərbaycan Prezidenti İlham Əliyevin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsi, Azərbaycan Dövlət Başçısının müsahibədə səsləndirdiyi mühüm məqamlar Türkiyənin İHA informasiya agentliyi, "Sabah", "Təqvim" və "Sözcü" qəzetləri türkdilli ictimaiyyətə müxtəlif sərlövhəli xəbərlər şəklində təqdim edib.

"İlham Əliyev: Paşinyan hazır olduğu vaxt onunla görüşməyə hazıram", "Türkiyə və Rusiyanın bölgənin sabitliyi üçün mühüm təsirləri oldu", "Bu il işğaldan azad olunan bölgələrin yenidən qurulması üçün 1.3 milyard dollar ayırdıq" və s. başlıqlarla təqdim olunan materiallarda 44 günlük Vətən müharibəsinin nəticələri və rəşadətli Zəfərin qazanılması əsasında bölgədə yaranmış yeni situasiya, Azərbaycanın prinsipləri və dəyişməz mövqeyi müfəssəl şəkildə oxuculara çatdırılırdı. İnformasiyalarda sülh, sabitlik və inkişaf tərəfdarı olan Azərbaycan mehriban qonşuluq münasibətləri üçün bütün səylərini israrla davam etdirdiyi xüsusi vurğulanırdı"[10]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 14-də Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyması və Şuşa şəhərinə səfəri Türkiyə kütləvi informasiya vasitələri əsas mövzularından birinə çevrildi. Anadolu və İHA agentliklərinin, TGRT, TRT Haber telekanallarının, həmçinin "Sabah","Milliyət", "Takvim", "Star", "Yeni şafaq" və digər nüfuzlu media qurumlarının saytlarında Azərbaycan Dövlət başçısının ünvanlandığı mühüm mesajlar, hərbçilərimizlə səmimi görüşü və şəkil çəkdirməsi ayrı-ayrı sərlövhələrlə türkdilli ictimaiyyətə çatdırılmışdı. [8]

# 44 Günlük vətən müharibəsi Türkiyə mediasında

Azərbaycanın barış,sülh siyasəti modeli, Zəngəzur dəhlizi Türkiyənin Anadolu Agentliyinin aparıcısının Tükiyə-Azərbaycan münasibətlərinə dair sualına cavab verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: " Türkiyə bizim yanımızda olmaqla, bütün dünyaya mesaj göndərdi ki, qarışmayın, müdaxilə etməyin. Azərbaycan haqq yolundadır və əgər qarışsanız, əgər müdaxilə etsəniz, qarşınızda Türkiyəni görəcəksiniz. Bu, əlbəttə, çox böyük bir üstünlük idi. İkinci Qarabağ savaşından sonra bizim münasibətlərimiz daha da yüksək pilləyə qalxdı. "Şuşa Bəyannaməsi"nin imzalanması bizim münasibətlərimizi daha da yüksək səviyyəyə qaldırdı. Faktiki olaraq biz "Şuşa Bəyannaməsi"nin imzalanması ilə de-fakto olan münasibətlərimizi de-yure səviyyəsinə qaldırdıq, yəni, müttəfiqlik səviyyəsinə. Onsuz da bu, hər sahədə müttəfiqlik əlaqələri idi. Ancaq biz bunu artıq rəsmiləşdirdik və bu, gələcək fəaliyyət üçün bir yol istiqamətidir. Bizim həmrəyliyimiz, qardaşlığımız hesab edirəm ki, bu gün bütün qonşu ölkələr üçün bir örnəkdir. Əgər bütün qonşular Türkiyə ilə Azərbaycan kimi münasibətlər qursaydılar, o zaman dünyada heç bir savaş, heç bir müharibə olmazdı"[1]

Azərbaycan Prezidenti İlham Əliyevin "CNN Türk" televiziya kanalına 2021-ci il avqustun 15-də verdiyi müsahibədə Ermənistanın mülki obyektləri, dinc əhalini atəşə tutduğunu, mina xəritələrini vermədiyini, verdiyi xəritələrin 25 faiz doğru olduğunu, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpa edildiyini, "ağıllı" kənd, "ağıllı" şəhər layihələrinin gerçəkləşdiyini bildirirdi. Aparıcının "Bundan sonra Azərbaycan və Ermənistan əlaqələri hansı şərtlərlə necə bir prosesə daxil olacaq?" sualına dövlət başçısı olduqca məzmunlu, dəyərli cavab verdi: "Mən bir neçə dəfə öz sözümü açıq demişdim ki, biz istəyirik Ermənistanla sülh müqaviləsi imzalansın. Ermənistan və Azərbaycan bir-birilərinin ərazi bütövlüyünü tanısınlar və sərhədlərin delimitasiyası, yəni, müəyyən edilməsi prosesi də başlasın. Ancaq bu günə qədər Ermənistandan müsbət cavab almamışıq. Belə görünür ki, Ermənistan buna hazır deyil, ya da bunun əleyhinədir.



Vətən müharibəsi günlərində Türkiyənin Azərbaycanda fəaliyyət göstərmiş kütləvi informasiya vasitələrinin - TRT, ATV, CNN Türk, A-Haber, Haber Qlobal telekanallarının, "Hürriyyət", "Sabah" qəzetlərinin əməkdaşları da hərbi əməliyyatların getdiyi ön mövqelərdə oldular. Ermənistanın hərbi-siyasi rəhbərliyinin müharibə bölgəsindən 100-150 km uzaqda olan yaşayış məntəqələrinə raket hücumları təşkil etmək xəbərini bütün dünyaya çatdırmışlar. Təbii ki, onların fəaliyyəti, o cümlədən CNN Türk telekanalının əməkdaşı Fulya Öztürk müharibə həqiqətlərini peşəkarcasına işıqlandırılmasındakı xidmətləri diplomlarla qiymətləndirilmişdi" [3] 44 günlük Vətən müharibəsində rəşadətli Türkiyəli jurnalistlərinə Azərbaycan xalqı adından öz minnətdarlığını bildirən Prezident, Müzəffər Ali Baş Komandan demişdir:"CNN Türk"ə də xüsusilə təşəkkür etmək istəyirəm. Çünki İkinci Qarabağ savaşında sizin müxbirləriniz ən qaynar nöqtələrdə idilər, atəş altında böyük fədakarlıqla, böyük sevgi və məhəbbətlə canlı reportajlar verirdilər. Deyə bilərəm ki, İkinci Qarabağ savaşında biz Türkiyə mətbuat nümayəndələrini özümüz üçün yenidən kəşf etdik." [2]

Beləliklə, Ermənistanın əsassız ərazi iddiaları və hərbi təzavüzü ilə başlayan münaqişənin tarixi –siyasi aspektləri, Prezident İlham Əliyevin II Qarabağ müharibəsi dövründə müharibədən sonrakı fəaliyyəti, ərazi bütövlüyünün bərpası, azad olunmu yaranmış geosiyasi və geoiqtisadi şərait Türkiyə mediasında ətraflı işıqlandırılmışdır.

Tamara Rüstəmova